**AMEA Riyaziyyat və Mexanika İnstitutunun**

**“Hesablama riyaziyyatı və informatika” şöbəsinin 2021-cı ilin I yarımili üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında**

Hesabat dövrü ərzində “Hesablama riyaziyyatı və informatika” şöbəsində “Dinamik xarakterli sənaye proseslərinin visual idarə metodlarının işlənməsi və müvafiq proqram təminatının yaradılması” mövzusu üzrə 3 elmi tədqiqat işi aparılmışdır.

Şöbənin 10 əməkdaşı var. Onlardan 2 nəfər fəlsəfə doktoru, 5 nəfər mühəndis-proqramlaşdırıcı, 3 nəfər isə laborantdır. Şöbənin elmlər doktoru hazırlığı üzrə iki doktorantı var.

Hesabat dövründə şöbə əməkdaşları tərəfindən 1 məqalə (WOS Core Collection: Emerging Sources Citation Index. İF 0.29) və 2 konfrans materialı (yerli) çap olunmuşdur.

Şöbədə aparılan elmi tədqiqat işlərində prioritet sahə kimi faza trayektoriyalari metodu əsasinda Respublikamızın neft-kimya sənayesində özünə yer tutan izobutanın dehidrogenləşdirilməsi prosesini qeyd etmək lazımdır. Hal-hazırda bu texnoloji prosesin istilik dinamikası modelinin faza fəzasında stasionar vəziyyətlər çoxsaylılığının nəzərə alınması ilə fiziki olaraq ölçülməyən koordinatların avtomatik qiymətləndirilmə məsələsinin tərtibi və həll metodu işlənilir. İlin başlanğıcından bu günə kimi mövzu üzrə həllini tapmış məsələ aşağıda göstərilmişdir:

-Vəziyyət dəyişənlərinin avtomatik stabilləşdirilməsi əsasında dinamika modelinin üç ölçülü faza fəzasında təsvir mexanizmi işlənmişdir.

Alınmış nəticələr impakt faktorlu jurnalda çap olunmuşdur. (Г.А.Нагиев, Н.А.Гулиева. Косвенное оценивание переменных состояния динамических

систем с множественностью положений равновесия на основе компьютерной симуляции на примере промышленных реакционно-регенерационных систем. Measurement Techniques, WOS Core Collection: Emerging Sources Citation Index. İF 0.29).

Maqistrant D.M.Şəfizadə Lənkəran Dövlər Universitetində 18 dekabr 2020-ci ildə keçirilən "İnformasiya, elm, texnologiya və universitet perspektivləri" mövzusunda doktorantlarin və gənc tədqiqatçilarin online respublika elmi konfransinda tezislə məruzə etmişdir. Həmçinin 11-12 may 2021-ci il tarixlərində Sumqayıt Dövlət Universitetində keçirilmiş Magistrantların XXI Respublika elmi konfransında tezislə məruzə etmişdir.

Şöbədə 16.02.2021 - 24.05.2021 müddətində həftənin bütün günləri bakalavr təhsil proqramı üzrə ADNSU – nin "Tətbiqi riyaziyyat" fakultəsinin 27 tələbəsinə onlayn elm-istehsalat təcrübəsi keçirilimiş və onların fəaliyyətinə əməkdaşlarımız tərəfindən elmi-praktiki rəhbərlik edilmişdir.

**Şöbə müdiri :** **t.ü.f.d. Həsən Nağıyev**